# Hammerton

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Hammerton alkid qətran əsaslı, hava qurumalı, parlaq, çatlayan naxışlı, son qat sənaye metal boyasıdır. Metal və astarlanmış səthlərə yaxşı yapışır, tez quruyur, parlaq və elastikdir. İstehsal və montaj zamanı yaranan istifadə olunduğu səthin qüsurlarını mükəmməl şəkildə örtür. Səthə dalğavarı naxışlı dekorativ görünüş verir. Hava şəraitinin təsirlərinə, kimyəvi və fiziki zərbəyə qarşı dözümlüdür.

### İstifadə olunacaq səthlər

Penguin Hammerton sənaye və təsərrüfat maşınlarının hissələrinin, elektrikli məişət avadanlıqlarının, çəllək və metal əşyaların (qapı, stol, şkaf) boyanmasında dekorativ və qoruyucu məqsədlə istifadə olunur. Metalı paslanmağa qarşı qoruyaraq ömrünü uzadır.

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Hammerton rəng kataloguna uyğun olaraq |
| **Sıxlığı (gr/sm$^3$)** | 0.97±3 (Rəngə görə dəyişə bilər) |
| **Özlülüyü** | 65±5 |
| **Parlaqlıq** | Parlaq |
| **İncəldici** | Penguin Sellulozik tiner – 5-10% |

### Boya sərfiyatı

Səth düzgünlüğü və tətbiq üsulu ilə əlaqəli olaraq tək qat 1 kq 8-10 m$^2$ sahə boyana bilər. Sərfiyyata boyanacaq -səthin nahamarlığı və məsaməliliyi, eləcə də rənglənmə üsulu və şərtləri təsir edir.

### Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən, yağ qalıqlarından və yapışmanın qarşısını alan maddələrdən təmizlənməlidir. Yeni boyanacaq səthlər rapid astar ilə tək qat astarlanmalı, köhnə boyanmış səthlərdəki qabarmış, boş və köhnə boyalar qazınmalı və bütün səth sumbata olunmalıdır. Səthdəki səviyyə fərqlərini aradan qaldırmaq üçün lazımi yerlər məcunlanmalı, ehtiyac olarsa, rapid astar ilə astarlanmalıdır. Astar tətbiq olunmuş səthə ən az 12 saat sonra istifadəyə hazır Penguin Hammerton Boya tətbiq tələblərinə bağlı olaraq 5-15 % nisbətində Penguin Sellülozik Tiner ilə incəldilərək yaxşı qarışdırılmalı, boya tapançası ilə tək qat və ya iki qat şəkildə tətbiq olunmalıdır.

### İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Uyğundur |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

**"CMT Group MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Hammerton

## Texniki Məlumat Səhifəsi

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **10$^{o}$C** | **23$^{o}$C** |
|---|---|---|
| **Toxunma quruma** | 1 saat | 15-20 dəq |
| **Tam (sərt) quruma** | 3 saat | 1 saat |
| **Tam sərtləşmə** | 40 saat | 24 saat |

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Birbaşa günəş işığı düşməyən 5-35°C-lik mühitdə, açılmamış orijinal qablarında 3 il saxlana bilər.

### Qablaşdırılma şəkli

0.75 lt və 2.5 lt-lik dəmir qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.


**“CMT Group MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Hammerton

## Texniki Məlumat Səhifəsi

| | |
|---|---|
| S 2 | : Uşaqların əli çatmayan yerdə saxlayın. |
| S 3 / 7 | : Konteyneri ağzı bağlı halda sərin yerdə saxlayın/ |
| S 24/25 | : Göz və dəri ilə təmasdan çəkinin. |
| S 29 | : Drenajlara atmayın. |
| S 46 | : Daxil edildikdə dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin. |

---

***Qeyd:** "CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyşdirmə hüququnu özündə saxlayır.*

**"CMT Group MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az